## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstan Respublikasının "Damu" Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Qauxar Buribayeva "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti"nin direktoru Askar Umarov "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum"u imzaladılar.



Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Qazaxıstan Respublikasının "KazMunayQaz" Milli Şirkəti"nin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş"i imzaladılar.

Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və "Samruk Kazyna" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk Kazyna" Səhmdar Cəmiyyəti arasında strateji tərəfdaşlıq Saziş"ni imzaladılar.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Aida Balayeva "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi arasında 2024-2025-ci illər üçün Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye naziri Baqdat Musin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiyalar və Aerokosmik Sənaye Nazirliyi arasında kosmosun dinc məqsədlərlə tədqiq edilməsi və istifadəsi sahəsində Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek "3 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının nəqliyyat naziri Marat Karabayev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyətinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"i imzaladılar.